MUSİQİ

DƏRSLİK

3

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

NƏRGİZ RƏCƏBOVA
ŞƏHLA QULİYEVA
ZEMFİRA ƏLİYEVA

Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün

MUSİQİ

fənni üzrə **dərslik**

© “Şərq-Qərb” Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

MÜNDƏRİCAT

1. Bayram musiqisi

1. Musiqi Günü 8
2. Sülhün carçıları 10
3. Əziz müəllim 12
4. Müstəqil Azərbaycan 14

2. Mahnıların ritmik müşayiəti

5. "El bilir ki, sən mənimsən" 16
6. "Azərbaycan bayrağı" 18
7. Vətən sağ olsun! 20

3. Musiqi forması

8. Sadə musiqi formaları 22
9. "Musiqili dairə" 24
10. Variasiya 26

4. Musiqi təəssüratları

11. Musiqidə müxtəlif obrazlar 28
12. Bayram ovqatı 30
13. "Gözəl Vətən" 32
14. "El igidləri ilə tanınar" 34

5. Musiqi alətləri

15. Zərb alətləri 36
16. Nəfəs alətləri 38
17. Simli alətlər 40
18. Simli-dartımlı alətlər 42
19. Musiqi ansamblı 44



6. Kino musiqisi

20. "Əzablı yollar" filmi 46
21. "Qərib cinlər diyarında" filmi 48
22. "Sehrli xalat" filmi 50
23. "Bir qalanın sirri" filmi 52

7. Konsert zalında

24. Sevimli Vətən 54
25. Afişa 56
26. Konsertə hazırlıq 58
27. Bayram konserti 60

"Musiqili yol" oyunu 62
Metallofon 64

Əziz dostlar!
Artıq üçüncü sinif şagirdisiniz və sizinlə yenidən görüşməyə çox şadıq! Siz dərslik vasitəsilə musiqi aləminə səyahət edəcəksiniz!
Sizin üçün Azərbaycan və digər xalqların musiqisi səslənəcək.

Ney

Dərsin əsas sualını mən verəcəyəm. Cavabı tapşırıqları yerinə yetirməklə tapacaqsınız.

Mənim sualıma cavab verməklə siz dərsdə nə öyrəndiyinizi biləcəksiniz.

Saz

Fəaliyyətlərin şərti işarələri:

Oxuma

Dinləmə

Lüğət

Tapşırıq

Rəqsetmə

Özünü yoxlama

Dərslikdəki QR kodlara müraciət edərək mövzu ilə əlaqədar daha çox maraqlı məlumat əldə edə bilərsiniz .

Mahnının ifa qaydaları:

Qamətinizi düz saxlayın.

Nəfəsi burunla alın, ağızla yavaş-yavaş verin.

Mahnını ifadəli oxuyun.

İfa zamanı sözləri düzgün tələffüz edin.

İntonasiyaya diqqət yetirin.



Musiqi əsərinin dinləmə qaydaları:

Əvvəldən axıra qədər diqqətlə dinləyin.

Dinləyərkən sakitliyə riayət edin.

Mahnı haqqında kiçik təqdimatın tərtibedilmə qaydaları:

Mahnı və müəlliflərin adlarını qeyd edin.

Mahnının xarakter və məzmunu haqqında fikirlərinizi yazın.

Mahnıya aid atalar sözləri, şəkillər və s. əlavə edin.



Bölmə 1 Bayram musiqisi

Bayramlarda səslənən musiqi əsərlərinin melodiyaları insanlarda şən, xoş əhvali-ruhiyyə yaradır.

1 Musiqi Günü

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin əsərləri milli və dünya musiqi xəzinəsini zənginləşdirmişdir. 18 sentyabr bəstəkarın doğum günüdür. Hər il həmin gün Üzeyir Musiqi Günü keçirilir və hər yerdə Üzeyir Hacıbəylinin əsərləri səsləndirilir. Həmin günü Milli Musiqi Günü də adlandırırlar.

Azərbaycan Respublikasının Dövlət Himni
Musiqisi Üzeyir Hacıbəylinin, sözləri Əhməd Cavadındır.

T 1 Azərbaycan Respublikasının Dövlət Himninin məzmununa uyğun atalar sözlərini seçin.

- Hər kəsə öz Vətəni əzizdir.
- İgidlik biləklə deyil, ürəklədir.
- Əmək insanı ucaldır.
- Elm ağlın çırağıdır.

T 2 "Bəstəkar Üzeyir Hacıbəyli" adlı krossvordu həll edin.

1. Dövlət rəmzlərindən biri.
2. Musiqi janrlarından biri ilə eyni adda olan pyes.
3. Cəngavərlik xarakterində olan pyes.
4. "... nəğməsi" – pyesin adında birinci söz, laylaların digər adı.
5. "Ey ... " – mahnının adında ikinci söz.
6. Bəstəkarın doğum günü ilə bağlı milli bayram.



Bugünkü dərsdə hansı hissləri keçirdiniz?

"Cəngi" pyesi Musiqisi Üzeyir Hacıbəylinindir.

T 3 "Cəngi" pyesini xarakterinə uyğun başqa cür adlandırmaq üçün verilmiş sözlərdən birini seçin.

zərif, qəhrəmani, kədərli, vüqarlı, məzəli

2 Sülhün carçıları

21 Sentyabr dünyada Beynəlxalq Sülh Günü kimi qeyd olunur. Sülh dinclik, əmin-amanlıq, qurub-yaratmaq deməkdir.

Qoy həmişə günəş olsun,
Qoy həmişə səma olsun,
Qoy həmişə anam olsun,
Mən də olum həmişə!

"Qoy həmişə günəş olsun!"

Sülh haqqında müxtəlif xalqların bəstəkarları mahnılar yazmışlar. Onlardan biri musiqisi Arkadi Ostrovskiyə, sözləri Lev Oşaninə məxsus olan "Qoy həmişə günəş olsun!" mahnısıdır. Mahnıda uşaq insanları sülhə çağırır. "Qoy həmişə günəş olsun!" mahnısının musiqisində sakitlik, həyəcan, sonda isə qətiyyətlilik və inam intonasiyaları hiss olunur.

"Qoy həmişə günəş olsun!"
Musiqisi Arkadi Ostrovskinin, sözləri Lev Oşaninindir.

1 Verilmiş sxemə əsasən "Qoy həmişə günəş olsun!" mahnısının təqdimatını hazırlayın.

“Göyərçinik biz!”
Musiqisi Rəşid Şəfəqin,
sözləri Zəhra Vəlizadənindir.

▬ - *əl çalmaq*

I bənd

Göyərçinik biz, ▬
Sülhdür adımız. ▬
Göyə uçmağa, uçmağa ▬ ▬
Var qanadımız, uçmağa. ▬ ▬
Göyə uçmağa ▬
Var qanadımız! ▬

II bənd

Sülhdür nəğməmiz, ▬
Körpə quşuq biz. ▬
Sülhü dünyaya, dünyaya ▬ ▬
Bağışlarıq biz, dünyaya. ▬ ▬
Sülhü dünyaya ▬
Bağışlarıq biz! ▬

III bənd

Qəlbimiz gülşən, ▬
Günlərimiz şən. ▬
Bizi bəxtəvər, bəxtəvər ▬ ▬
Yaşadır Vətən, bəxtəvər. ▬ ▬
Bizi bəxtəvər ▬
Yaşadır Vətən!!! ▬

T 2 “Göyərçinik biz!” mahnısını oxuyarkən işarələnmiş hecalara uyğun əl çalın.

T 3 “Göyərçinik biz!” mahnısının məzmununa uyğun şəkilləri seçin.

Dərsdə ən çox xoşunuza gələn nə idi?

3 Əziz müəllim

5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür. Bizə bilik, savad bəxş edən müəllimlərimizdir. Müəllimlər xalqımıza layiq vətəndaşların yetişdirilməsində öz xidmətlərini əsirgəmirlər.

"Məktəblilər"
Musiqisi Musa Mirzəyevin, sözləri Hikmət Ziyanındır.

T 1 Aşağıdakı qaydalara əsasən "Məktəblilər" mahnısı haqqında təqdimat hazırlayın.

Nümunə üçün:

1. Üzeyir Hacıbəyli
2. Görkəmli, vətənpərvər
3. Bəstələyir, ilhamlandırır, inandırır.
4. Biz onun musiqisini sevirik.
5. Dahi

Birinci sətir (1 söz və ya söz birləşməsi) – mövzu
İkinci sətir (2 söz) – mövzuya aid əlamət və xüsusiyyətlər
Üçüncü sətir (3 söz) – mövzuya aid hərəkət
Dördüncü sətir (4 söz) – mövzuya şəxsi münasibət
Beşinci sətir (1 söz) – mövzunun mahiyyəti

"Müəllim"
Musiqisi Nailə Mirməmmədlinin, sözləri Zivər Ağayevanındır.

I bənd
Üç anam var bu dünyada əzəldən:
Biri Vətən, biri anam, biri sən.
Müəllimim, sən gözəldən gözəlsən,
Göylərdəki ulduzlardan birisən.

II bənd
Sən əzizsən, mehribansan, ulusan,
Sən canımsan, gözlərimin nurusan.
Gələcəyə gedən ömür yolumsan,
Könlümüzü, ruhumuzu qoru sən!

T 2 "Müəllim" mahnısını oxuyaraq ölçüsünə uyğun dirijorluq edin.

Dirijorluq sxemi



4 Müstəqil Azərbaycan

18 Oktyabr Azərbaycanda Müstəqilliyin Bərpası Günüdür. Müstəqil dövlətdə yaşamaq və yaratmaq səadətdir! Azərbaycan şairləri və bəstəkarları bu səadəti, Vətənə sevgilərini öz əsərlərində tərənnüm etmişlər.

"Gözəl Vətən"
Musiqisi Nailə Mirməmmədlinin, sözləri Sübhanə Nəciqızınındır.

1 "Gözəl Vətən" mahnısının yazılı təqdimatını hazırlayın.

Xarıbülbül
MUSİQİ FESTİVALI
ŞUŞA, AZƏRBAYCAN 2021

“Azərbaycanım”
Musiqisi Rauf Hacıyevin,
sözləri Ənvər Əlibəylinindir.

Azərbaycan haqqında mahnıları necə təqdim etmək olar?

I bənd
Özün kimi vüqarlıdır uca dağların,
Hüsnünə bir yaraşıqdır yaşıl bağların,
Bizimlə bir başlamışdır gözəl çağların.

Nəqərat:
Yurdum, yuvam, məskənimsən, Azərbaycanım!
Anam, doğma vətənimsən, Azərbaycanım!

II bənd
El bilir ki, tükənməyən sərvətin vardır,
Sinən üstü ağ pambıqlı gen tarlalardır,
Buruqların göy Xəzərdə qatar-qatardır.

Nəqərat.

Daha hansı mahnıya təqdimat hazırlamaq istərdiniz?

T 2 “Azərbaycanım” mahnısını oxuyarkən ölçüsünə uyğun dirijorluq edin (“bir və”, “iki və”).

T 3 “Azərbaycanım” mahnısının şifahi təqdimatını hazırlayın.

Ritmik müşayiət musiqinin məzmunu və xarakteri haqqında təsəvvürün yaranmasına kömək edir.

5 "El bilir ki, sən mənimsən"

Hər bir musiqi əsərinin müəyyən ritmi var. Ritmi düzgün ifadə etmək üçün müxtəlif üsullardan istifadə olunur. Onlardan biri də ritmik müşayiətdir. Ritmik müşayiət zamanı musiqi əsərinin xarakteri nəzərə alınır.

"Azərbaycan" aşıq mahnısı
Sözləri Səməd Vurğunundur.

I bənd

Çox keçmişəm bu dağlardan,
Durna gözlü bulaqlardan.
Ayrılarmı könül candan?!
Azərbaycan, Azərbaycan!

▬ - *əl çalmaq*

Nəqərat:

Yaşa, yaşa, Azərbaycan!
Ay anam, Azərbaycan!

T 1 "Azərbaycan" aşıq mahnısını oxuyarkən işarələnmiş hecalara uyğun əl çalın.

II bənd

Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır.
Oğlun, qızın bəxtiyardır,
Azərbaycan, Azərbaycan!

Nəqərat.

III bənd

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.
Demək, doğma Vətənimsən,
Azərbaycan, Azərbaycan!

Nəqərat.

"Mahnı və rəqs"
Musiqisi Cahangir Cahangirovun, sözləri Mirmehdi Seyidzadənindir.

T 2 Sxemə görə "Mahnı və rəqs" mahnısının ritmini rəqs hərəkətləri və əl çalmaqla göstərin.

Nümunə üçün:

Ölkə-	mizin	bizik	bəxti-	yar nəs-	li
Oyna-	yırıq	həvəs-	li	həvəs-	li

Hansı mahnılar səslənəndə rəqs edərdiniz?



6 "Azərbaycan bayrağı"

Mahnı-marşlar, adətən, ritmik müşayiətlə ifa edilir. Ritmik müşayiət mahnı-marşların dəqiq ritmini göstərməyə kömək edir.

"Azərbaycan bayrağı"
Musiqisi Nailə Mirməmmədlinin,
sözləri Vüqar Əhmədindir.

I bənd
Ən əziz, ən müqəddəsdir,
Yenilməzdir türk bayrağı!
Dalğalandı, nəfəs kəsdi,
Yağı salar türk bayrağı!

T 1 "Azərbaycan bayrağı" mahnısını oxuyaraq yerinizdə addımlayın.

Nəqərat:
Üç rəngli bir röyası var,
Dünyada türk dünyası var!
Milli himni, havası var
Azərbaycan bayrağının!
Yüksəlib enməz, alovu sönməz,
Savaşda geri dönməz Azərbaycan bayrağı!

“Zəfər nəğməsi”
Musiqisi Abbas Soltanoğlunun,
sözləri Baba Vəziroğlunundur.

T 2 “Zəfər nəğməsi” mahnısının ritminə uyğun əl çalın.

T 3 Verilmiş mahnıları müqayisə etmək üçün cədvəli doldurun.

Mahnının adı	Mahnının xarakteri	Ritmik müşayiətin növü	Təəssüratlar
“Azərbaycan bayrağı”	☆☆☆	☆☆☆	☆☆☆
“Zəfər nəğməsi”	☆☆☆	☆☆☆	☆☆☆

Mahnı-marşlarda daha hansı ritmik müşayiətdən istifadə edərdiniz?

II bənd
Ulu Öndər yadigarı,
Azadlığa etibarlı,
Qəhrəmanlıq misraları
Səndə yaşar, türk bayrağı!

Nəqərat.

Son üçün:
Yüksəlib enməz, alovu sönməz,
Savaşda geri dönməz Azərbaycan bayrağı!

7 Vətən sağ olsun!

Elə mahnılar var ki, vətənin qəhrəman oğulları və qızlarından, onların igidliklərindən bəhs edir. Bu mahnılar hərbi paradlarda, yürüşlərdə, sıra məşqlərində və s. ifa olunur. Addımlamaqla və ya zərb musiqi alətlərində çalmaqla həmin mahnılara ritmik müşayiət yaratmaq olar.

"Əsgər marşı"
Musiqisi Cavanşir Quliyevin, sözləri Əli Kaminindir.

I bənd

Vətən məni yetişdirib
Bu ellərə yolladı.
Bu torpağa qurban deyib
Allaha ismarladı.
"Boş oturma, çalış, – dedi,
Xidmət eylə vətənə.
Südüm sənə halal olmaz,
Sən baş əysən düşmənə".

Nəqərat:

Marş irəli, hey!
Marş irəli!
Azərbaycan əsgəri!
Dönməz geri, hey,
Dönməz geri!
Azərbaycan əsgəri!

II bənd

Yastığımız Vətən daşı,
Yorğanımız qar olsun.
Biz bu yoldan dönər olsaq,
Namus bizə ar olsun!
Nə gözəldir ölmək bizə
Sevimli Vətən üçün.
Yanar ürək yurd eşqilə
Daima için-için.

Nəqərat.

T 1 "Əsgər marşı" mahnısını oxuyaraq yerinizdə addımlayın.

2 "Əsgər marşı" mahnısının nəqəratını zərb musiqi alətlərində müşayiət edin.

Çərək pauza 𝄽

Səkkizlik pauza 𝄾

	Marş	irə-	li!	Hey! 𝄾	Marş	irə-	li!	𝄽
	𝄾 A-	zərbay-	can	əsgə-	ri! 𝄾	𝄽	𝄽	𝄽
	Dön-	məz ge-	ri	Hey! 𝄾	Dön-	məz ge-	ri	𝄽
	𝄾 A-	zərbay-	can	əsgə-	ri! 𝄾	𝄽	𝄽	𝄽
Barabana vurmaq								
Nağaraya vurmaq								
Zəngi silkələmək								

Mahnıların ritmik müşayiəti haqqında yeni nə öyrəndiniz?

"Zəfər nəğməsi"
Musiqisi Abbas Soltanoğlunun, sözləri Baba Vəziroğlunundur.

3 "Zəfər nəğməsi"ni ritminə uyğun zərb musiqi alətlərində müşayiət edin.



Musiqi əsərinin forması onun məzmunu ilə sıx əlaqədardır.

8 Sadə musiqi formaları

Eyni əhvali-ruhiyyəni müxtəlif formalı musiqi əsərlərində əks etdirmək olar. Məzmununa görə musiqi əsərləri 1, 2, 3 hissəli və digər formalarda yazılır.

1 hissəli musiqi formasında (şərti olaraq "A" hərfi ilə işarələnir) yazılmış əsər bir xarakter və əhvali-ruhiyyəlidir.

2 hissəli musiqi formasında (şərti olaraq "A-B" hərfləri ilə işarələnir) yazılmış əsərin II hissəsi xarakter və əhvali-ruhiyyəsinə görə I hissədən fərqlənir.

3 hissəli musiqi formasında (şərti olaraq "A-B-A" hərfləri ilə işarələnir) yazılmış əsərin I və III hissələri, əsasən, bir xarakter və əhvali-ruhiyyəlidir. II hissə isə onlardan fərqli olur.

1 hissəli musiqi formasının sxemi

A

2 hissəli musiqi formasının sxemi

A B

3 hissəli musiqi formasının sxemi

A B A

"Qatar"
Musiqisi Fikrət Əmirovun,
sözləri Zeynal Cabbarzadənindir.

“Qayıqda”
Musiqisi Səid Rüstəmovun,
sözləri Mirmehdi Seyidzadənindir.

I bənd

Şəfəq yanır səhər erkən,
Qayıq çıxıb göy dənizə.
Qanadlanıb, açıb yelkən,
Gəzir suda üzə-üzə.

Nəqərat:
Seyrə çıxaq göy dənizə,
Gəzək suda üzə-üzə.

II bənd

Qayıq yarır dalğaları,
Köpüklənən sular daşır.
Qayıq gəlir bizə sarı,
Sahillərə yaxınlaşır.

Nəqərat.

III bənd

Bu qayıqda gəzirik biz,
Seyr edirik göy Xəzəri.
Gözəl keçir gəzintimiz,
Qayığımız dönür geri.

Nəqərat.



“Taxta əsgərlər marşı” pyesi
Musiqisi Pyotr Çaykovskinindir.

T 1 Musiqi əsərlərinin hissələrinin ladını müəyyənləşdirib cədvəldə qeyd edin.

– major **– minor**

Əsərin adı	forma	hissələr		
		A	B	A
“Qatar”	1 hissəli			
“Qayıqda”	2 hissəli			
“Taxta əsgərlər marşı”	3 hissəli			

Dərsdə hansı fəaliyyətinizi daha uğurlu hesab edirsiniz?

9 “Musiqili dairə”

Rondo musiqi formasının sxemi

A	B	A	C	A
Refren	I epizod	Refren	II epizod	Refren

Musiqi əsərləri müxtəlif formalarda yazılır. Belə formalardan biri rondodur. Bu forma refren və epizodlardan ibarətdir. Refren bir xarakter və əhvali-ruhiyyədə olan musiqi parçasıdır. O, ən azı, üç dəfə təkrarlanır. Epizodlar isə bir-birindən fərqli müxtəlif musiqi parçalarıdır.

“Musiqili dairə” oyununun qaydaları:
4 qrupa bölünün: “Qoğal”, “Dovşan”, “Canavar” və “Ayı”. Qrupun adına uyğun maskalardan istifadə edin.
Dairə şəklində düzülün: “Qoğal” qrupunun 1-ci üzvü – “Dovşan” qrupu – “Qoğal” qrupunun 2-ci üzvü” – “Canavar” qrupu – “Qoğal” qrupunun 3-cü üzvü – “Ayı” qrupu.
Musiqi səsləndikdə onun təkrar olunan parçasında bir “qoğal” yerində addımlasın. Təkrar olunmayan musiqi parçalarında isə qruplar növbə ilə öz hərəkətlərini yerinə yetirsin. Oyun birinci “qoğal”ın təkrar addımlaması ilə bitsin.

“Biçinçilər” pyesi
Musiqisi Fransua Kuperenindir.

"Musiqili dairə" oyununu “Biçinçilər” pyesinin müşayiəti ilə oynayın.

Təkrarlanan obrazları musiqidə necə göstərmək olar?

*(**A** – “Məktəblilər” mahnısından bir bənd)*

Yaradırıq, qururuq biz,
İldən-ilə boy atırıq.
Xoşbəxt günlər diyarında
Arzumuza tez çatırıq.

*(**B** – “Sadiq olaq Vətənə” mahnısından bir bənd)*

Sevək işi, zəhməti,
Ağ günlərə yol olsun.
Əkək, quraq, yaradaq,
Sərvətimiz bol olsun.

*(**C** – “Qaliblər mahnısı”ndan bir bənd)*

Bu mahnıyla, uşaqlar, ay uşaqlar,
Dərs oxuyub, boy atırıq bəxtiyar!
Qoy, deyirik, bilsin yaxın-uzaqlar,
Qaliblərin mahnısıdır bu mahnı.

Verilmiş musiqi parçalarından (***A, B, C***) istifadə etməklə rondo formasında “Mahnı çələngi” musiqi nümunəsini qurun.

“Mahnı çələngi”nin hissələrini ladına ("major", "minor") uyğun ifa edin.

Musiqi forması haqqında yeni nə öyrəndiniz?

10 Variasiya

Variasiya musiqi formasının sxemi

A	A_1	A_2	A_3
Əsas mövzu	I variasiya	II variasiya	III variasiya

Elə musiqi əsərləri var ki, onların əsas mövzusu bir neçə dəfə dəyişilir. Bu əsərlər variasiya musiqi formasındadır. Variasiya musiqi forması bir neçə musiqi parçasından: əsas mövzunu və onun variantlarını əks etdirən variasiyalardan ibarətdir.

Variasiya – variant, dəyişiklik

"Çoban mahnısı"
Fransız xalq mahnısı

I bənd
Mahnının səsi gəlir –
Çoban sürü gətirir.
Günəş çıxanda göyə
Götürür çoban kökə.
Tu-ru, tu-ru, tu-ru-ru,
Lap sübhdən çıxır sürü.

II bənd
Çəməndə şeh quruyur,
Quşlar nəğmə oxuyur.
Otu günəş boyayır,
Çoban tütəkdə çalır.
Tu-ru, tu-ru, ta-ra-ra,
Tez gedək biz otlağa!

T 1 "Çoban mahnısı" səsləndikcə onun melodiyasını "la" və "li" hecaları ilə oxuyun.

T 2 "Çoban mahnısı"nın melodiyası səsləndikdə müxtəlif xarakterli çoban obrazlarını hərəkətlərlə göstərin.

"Fransız xalq mahnısı mövzusunda 12 variasiya" əsərindən əsas mövzu və üç variasiya
Musiqisi Volfqanq Amadey Motsartındır.

Hansı biliklər variasiya musiqi formasını öyrənməyə kömək etdi?

T 3 "Fransız xalq mahnısı mövzusunda 12 variasiya"nın əsas mövzusunda olan dəyişiklikləri cədvəldə qeyd edin.

	Melodiya	Temp	Lad
I variasiya	☆☆☆	☆☆☆	☆☆☆
II variasiya	☆☆☆	☆☆☆	☆☆☆
III variasiya	☆☆☆	☆☆☆	☆☆☆

Müxtəlif məzmunlu musiqi əsərlərini dinləyərkən və ya ifa edərkən musiqi təəssüratlarımız zənginləşir.

11 Musiqidə müxtəlif obrazlar

Nə qədər musiqi əsəri varsa, bir o qədər də obraz və təəssürat var.

İnsanın hiss və düşüncələri, hərəkətləri, həyat hadisələri və təbiət mənzərələri müxtəlif olduğu kimi, musiqidə də obrazlar müxtəlifdir. Bu obrazları yaradarkən bəstəkar musiqi ifadə vasitələrindən istifadə edir. Musiqi obrazını müəyyənləşdirərkən həmin musiqi ifadə vasitələri və bəstəkarın bizə nəyi çatdırmaq istədiyi (ideya) nəzərə alınır.

"Şaxta baba"
Musiqisi Səid Rüstəmovun,
sözləri Mirmehdi Seyidzadənindir.

I bənd

Keçdi dəniz, aşdı dağ,
Gəldi bizə bir qonaq.
Saçları qardan dümağ, hey, hey!
Söylədik alqış, baba,
Şaxta baba, qış baba!

Nəqərat:
Ay sənə alqış, baba,
Şaxta baba, qış baba!

II bənd

Çöldə çıxıb qar dizə,
Yolka qonaqdır bizə.
Nəğmə deyib üz-üzə, hey, hey!
Söylədik alqış, baba,
Şaxta baba, qış baba!

Nəqərat.

T 1 Mahnını oxuyarkən Şaxta baba obrazını hərəkətlərlə təsvir edin.

"Qəşəngi"
Azərbaycan xalq rəqsi

T 2 "Şaxta baba" və "Qəşəngi" musiqi nümunələrinin obrazlarına uyğun şəkilləri seçin.

Musiqi obrazı haqqında yeni nə öyrəndiniz?

T 3 Obrazı müəyyən edib "Qəşəngi" rəqsini tempinə uyğun ifa edin.

Rəqs elementlərinin sxemi



12 Bayram ovqatı

Bayramlar insanda müxtəlif emosiyalar yaradır. Bayramlarda, demək olar ki, hamı iştirak edir: kimi çalıb-oxuyur, kimi rəqs edir, kimi isə, sadəcə, musiqi dinləyir. İnsanlar bayramlarda daha çox şən, oynaq, ritmik musiqilərə üstünlük verirlər.

"Azərbaycanım"
Musiqisi Rauf Hacıyevin,
sözləri Ənvər Əlibəylinindir.

"Azərbaycanım" mahnısına aid fikirlərinizi verilmiş cədvələ yazın.

Mahnıdakı xoş təsir bağışlayan sözlər və ya fikirlər	Seçimin əsaslandırılması
☆ ☆ ☆	☆ ☆ ☆

"Şaxta baba"
Musiqisi Səid Rüstəmovun,
sözləri Mirmehdi Seyidzadənindir.



Metallofonun 1-ci və 5-ci pillələrində çalmaqla "Şaxta baba" mahnısını tempinə uyğun ifa edin.

Musiqini ifa etməklə bayram ovqatını necə yaratmaq olar?

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü

Dərsdə daha çox xoşunuza gələn nə idi?

"Qəşəngi" Azərbaycan xalq rəqsi

3 "Qəşəngi" Azərbaycan xalq rəqsini tempinə uyğun ifa edin.

13 "Gözəl Vətən"

Musiqi əsərinin melodik xəttini təşkil edən səslər eyni və ya fərqli səs yüksəkliyində yerləşir. Musiqidə iki səs arasında olan məsafə interval adlanır.

Prima (1) Sekunda (2) Tersiya (3)

Melodiyanın hərəkəti sxemləri (ilk intonasiya)

"İdman" mahnısı

"Qatar" mahnısı



"Yaxşı otur, yaxşı dur!" mahnısı



“Gözəl Vətən”
Musiqisi Nailə Mirməmmədlinin,
sözləri Sübhanə Nəciqızınındır.

Qırmızı rəngdə yazılan heca intervalın birinci səsidir.

Göy rəngdə yazılan heca intervalın ikinci səsidir.

1 – prima
2 – sekunda
3 – tersiya

Musiqi əsərlərinin melodik xətti nə üçün fərqlənir?

I bənd

1 Vətənimin mərd oğulları, → (sol sol)
Üçrəngli bayraq bizimdir!
Azad, məğrur görünən
Bu gözəl Vətən bizimdir!

Nəqərat:

2 Görünən uca dağları, → (fa sol)
Coşan-daşan mavi Xəzəri,
Qara qızıl, ağ qızılı,
Bu gözəl Vətən bizimdir!
3 Əhməd Cavadın kəlməsi, → (sol si)
Üzeyirin həzin bəstəsi,
Dillərdə əzbər olan,
Qəlbə yatan xoş himni,
Azərbaycan, Azərbaycan,
Bu gözəl Vətən bizimdir!

II bənd

1 Gül açan bahar çağları, → (sol sol)
Göy meşəli axan çayları,
Buz bulaqlı, yaşıl çəmənli
Bu gözəl Vətən bizimdir!

Nəqərat.

T 1 “Gözəl Vətən” mahnısının melodiyasında olan intervalları (mətnin işarələnmiş yerlərində) metallofonda çalın.

İnterval haqqında nə öyrəndiniz?

“Sarı bülbül”
Azərbaycan xalq mahnısı

T 2 “Sarı bülbül” mahnısını ölçüsünə uyğun dirijorluq edin.

Dirijorluq sxemi



14 "El igidləri ilə tanınar"

Azərbaycan qəhrəmanlar diyarı, igidlər məskənidir. Xalqımız zaman-zaman Vətən uğrunda canından keçmiş, doğma yurdunu göz-bəbəyi kimi qorumuş öz mərd oğul və qızlarına mahnılar qoşmuş və bu mahnıları el məclislərində ifa etmişdir. Qəhrəmani mahnıların yaranma tarixi olduqca qədimdir. Belə mahnılar bu gün də yaranmaqdadır.

“Vətən oğlu” aşıq mahnısı

I bənd
Vətən oğlu öz canını,
El uğrunda qurban elər.
Aşıq coşar məclislərdə,
Bu şöhrəti dastan elər.
Ay aman, ay aman,
Ay aman, ay aman,
Dastan elər, dastan elər.

II bənd
Çala bilməz sar tərlanı,
Bu elləri yaxşı tanı.
Kəc baxana gen dünyanı
Bizim ordu zindan elər.
Ay aman, ay aman,
Ay aman, ay aman,
Zindan elər, zindan elər.

III bənd
Çox güvənmə gəl özünə,
Mil salaram cüt gözünə.
Bir damcı qan əvəzinə
Qoç Koroğlu min qan elər.
Ay aman, ay aman,
Ay aman, ay aman,
Min qan elər, min qan elər.

T 1 “Vətən oğlu” mahnısından qəhrəmanlığa aid sözləri seçib verilmiş sxemdə qeyd edin.

Keçdiyiniz hansı mahnıları qəhrəmani mahnılara aid edərdiniz?

T 2 “Vətən oğlu” mahnısı əsasında “El igidləri ilə tanınar” adlı təqdimat hazırlayın.

Hər xalqın öz milli musiqi alətləri var. İfa tərzinə görə onlar zərb, nəfəs və simli alətlərə bölünür.

15 Zərb alətləri

Müxtəlif insanlar fərqli səslərə malik olduqları kimi, musiqi alətlərinin səsləri də bir-birindən fərqlənir. Səsin bu xüsusiyyəti tembr adlanır. Tembr musiqi ifadə vasitəsidir. Zərb musiqi alətlərinin tembri alətin düzəldiyi materialdan, formasından, ona vurulan zərbənin üsulundan asılıdır.

"Çal, baraban!"
Musiqisi Oqtay Zülfüqarovun, sözləri Teymur Elçinindir.

I bənd
Biz yürüşə çıxmışıq,
Çal, baraban, baraban!
Yol genişdir, yol işıq,
Çal, baraban, baraban!

Nəqərat:
Çal, baraban,
Çal, baraban,
Çal, baraban,
Baraban, baraban!
Bara-bara-bam,
Bara-bara-bam,
Çal, baraban,
Baraban, baraban!

II bənd
Yavaş-yavaş vurulma,
Çal, baraban, baraban!
İşimiz var, yorulma,
Çal, baraban, baraban!

Nəqərat.

III bənd
Dostlarımız çox olsun,
Çal, baraban, baraban!
Hamı bizə qoşulsun,
Çal, baraban, baraban!

Nəqərat.

Dirijorluq sxemi



T 1 "Çal, baraban!" mahnısını oxuyaraq ölçüsünə uyğun dirijorluq edin.

“Musiqi obrazı” oyununun qaydaları:

4 qrupa bölünün. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşıb, bir növ zərb alətini (nağara, şaxşax, dəf, zəng) və müxtəlif obrazların təsviri olan kartları (ayı, dovşan, sərçə, keçi, pişik, inək) götürsün. Qrupunuzun musiqi alətinin tembrinə uyğun şəkillərdən bir obrazı seçin. Musiqi səsləndikcə zərb musiqi alətlərində çalmaqla seçdiyiniz obrazı ifadə edin.

Musiqi obrazlarını yaratmaq üçün zərb alətlərindən necə istifadə etmək olar?

T 2 Zərb alətinin tembrinə görə musiqi obrazı yaradın.

“Həsəni”
Azərbaycan xalq rəqsi

Rəqs elementlərinin sxemi



Zərb alətlərinin tembrinə uyğun daha hansı obrazları yarada bilərsiniz?

T 3 Cümləni tamamlayın.

“Həsəni” rəqsinin müşayiətinə görə təsəvvürümdə ... obrazı yaranır.

16 Nəfəs alətləri

İlk yaranan musiqi alətlərinin bir növü də nəfəs alətləridir.
Bu alətlərdə ifa etmək üçün nəfəsvermə üsulundan istifadə edirlər. Elə nəfəs alətləri vardır ki, onlar bir və ya bir neçə registrdə səslənir. Registr musiqi ifadə vasitəsidir. Səs yüksəkliyinə görə (bəm, orta, zil) musiqi səsləri üç registrdə yerləşir: aşağı, orta və yuxarı.

"Üç registr" sxemi

"Çoban bayatısı" (bir parça)
Azərbaycan xalq musiqisi

1 Bülbül və tütək musiqi alətinin səs yüksəkliyinə uyğun registri müəyyən edin.

“Bülbülün nəğməsi”
Musiqisi Cahangir Cahangirovun, sözləri Abdulla Şaiqindir.

2 “Bülbülün nəğməsi” mahnısını oxuyarkən ritmə uyğun tütəkdə çalırmış kimi hərəkətlərlə təsvir edin.

I bənd
Quşlar şahı, şux bülbüləm,
Saz çalmaqdır peşəm mənim.
Çiçəklərin qucağıdır
İlk baharda ilk Vətənim.

II bənd
Quşlar mənim məclisimə
Dimdiyində bağ gətirir.
Bahar mənə ətir saçan
Çiçəklərdən tac gətirir.

III bənd
Mən səadət carçısıyam,
Könül açan xoş səsim var.
Vətən deyə ötəcəyəm,
Nə qədər ki nəfəsim var.

“Tənha çoban”
pyesi (bir parça)
Musiqisi Ceyms Lastındır.

Musiqi alətləri haqqında yeni nə öyrəndiniz?

3 Verilmiş sözlərdən istifadə edərək cümləni tamamlayın.

Baraban, metallofon, zəng, tütək, şaxşax

“Tənha çoban” pyesinin xarakterinə uyğun fleytanı ... musiqi aləti ilə əvəz etmək olar.

17 Simli alətlər

Musiqi alətləri içərisində simli alətlər də vardır. Simli alətlərin tembrləri onların hansı registrdə səslənməsindən asılıdır. Bu alətlərdə iki cür ifa üsulu olur: kamanla və mizrabla.

AZƏRBAYCAN **AVROPA**

Kamanla çalınan simli alətlər

Kamança

Mizrabla çalınan simli alətlər

Tar

Gitara

Zərb, nəfəs və digər musiqi alətləri üçün eyni mövzuda musiqi əsərləri var.

"Ay işığında" mahnısının melodiyası (tar, kamança və skripkanın ifasında) Musiqisi Qəmbər Hüseynlinin, sözləri Zeynal Xəlilindir.

"Ay işığında" mahnısının melodiyası səsləndikcə onu ifa edən musiqi alətlərini müəyyən edin.

Şahin Musaoğlu "Cənab leytenant" mahnısını illər öncə yazmışdır. 2020-ci ildə başlanan Vətən müharibəsində qazandığımız qələbədən ilhamlanaraq müəllif mahnıda bəzi dəyişikliklər etmişdir.

“Cənab leytenant”
Musiqisi və sözləri
Şahin Musaoğlunundur.

I bənd

Barıt qoxulu o yollar, o yollar
Səni bəs nə vaxt qaytarar, qaytarar?
Səndən təsəlli bir zabit mundiri,
Bir cüt ulduzlu, aylı paqonlar.

Nəqərat:

Hay ver mənə, cənab leytenant,
Hay ver mənə, leytenant.
Xoş müjdəli bir savaşdan
Pay ver mənə, leytenant.

II bənd

Qisas, son qisas yetməyib, yetməyib,
Savaş, son savaş bitməyib, bitməyib.
Səngər yanındakı çatdığım ocağın
Odu, hənirtisi hələ keçməyib.

Nəqərat.

III bənd

O gün bu gündür, qəm yemə, qəm yemə.
Gözlə, dönürəm mən sənə, mən sənə.
Doğan al günəşin zəfər müjdəsin
Vuran ürəyimlə yetirrəm sənə!

Nəqərat.

T 2 “Cənab leytenant” mahnısını oxuyarkən ritmə uyğun gitarada çalırmış kimi hərəkətlərlə təsvir edin.

Azərbaycan və Avropa simli musiqi alətlərinin oxşarlığı nədədir?

Kontrabas musiqi alətinin ifasında bir melodiya

T 3 Şəkillərdən kontrabas musiqi alətinin səslənməsinə uyğun obrazı seçib nümayiş etdirin.

18 Simli-dartımlı alətlər

Qanun və çəng qədim Azərbaycan milli musiqi alətləridir. Bu alətlərdə simlərə toxunmaqla (simləri dartmaqla) çalırlar. Qanunda mizrabla, çəngdə isə simləri dartmaqla ifa edirlər. Avropa musiqi alətlərinə aid olan arfa da simli-dartımlı alətdir. Bu alət həcmcə böyükdür, onu çiyinə söykəyərək simlərini dartmaqla çalırlar.

AZƏRBAYCAN
musiqi aləti

AVROPA
musiqi aləti

Arfa və çəng musiqi alətlərində ifa olunan melodiyalar

T 1 Cədvəli doldurun.

Arfa musiqi alətini sözlə təsvir edin.	☆
Arfa və çəng musiqi alətlərini müqayisə edin.	☆
Arfanın səslənməsini hansısa təbiət hadisəsi ilə əlaqələndirin.	☆

Qanun musiqi alətinin ifasında bir melodiya

T 2 Qanunda ifa olunan melodiyaya uyğun şeirdə təsvir olunan təbiət hadisələrindən birini seçin.

“Anacan”
Musiqisi Rafiq Rüstəmovun,
sözləri Rəfiq Zəkanındır.

I bənd
Gün çıxdı, güldü göylər,
Nur yayıldı aləmə.
Çünki biz şənlənirdik,
Dilimizdə bu nəğmə.

Nəqərat:
Deyirdik hamımız,
Anacan!
Sevimli mahnımız,
Anacan!

Təbiət obrazlarını və ya hadisələrini simli musiqi alətlərində necə əks etdirmək olar?

II bənd
Quş uçdu yuvasından,
Səsi düşdü aləmə.
Çünki biz şənlənirdik,
Dilimizdə bu nəğmə.

Nəqərat.

III bənd
Sel axdı, çaylar daşdı,
Bahar güldü aləmə.
Çünki biz şənlənirdik,
Dilimizdə bu nəğmə.

Nəqərat.

T 3 “Anacan” mahnısını oxuyarkən ritminə uyğun əl çalın.

Simli alətləri tembrinə görə daha hansı təbiət hadisələri ilə uyğunlaşdırardınız?



Yenə də yamyaşıl geyinir dağlar,
Göz kimi durulur qaynar bulaqlar.
Əriyir güneylər döşündəki qar,
Yağış da isladır o göy çəməni,
Təbiət ilhama çağırır məni!

(Səməd Vurğunun “Təbiət ilhama çağırır məni!” şeirindən bir parça)

19 Musiqi ansamblı

Bir yerdə çıxış edən və bir kollektiv təşkil edən musiqiçilər dəstəsi ansambl adlanır. Ansamblların növləri ifaçıların fəaliyyətindən asılıdır: oxuyanlar, çalğıçılar və rəqs edənlər. Ansambllar tərkibində ifaçıların sayına görə də fərqlənir.

Ansambl – birgə, cəm halında ifa

“Bayram axşamlarında” Musiqisi Ramiz Mirişlinin, sözləri Fikrət Qocanındır.

I bənd
Yollar əlvan boyanar,
Evlərdə arzu yanar,
Gözlərə sevinc qonar
Bayram axşamlarında.

Nəqərat:
Nəğmə olur dalğalar,
Qış dönüb olar bahar, hey,
Göydən məhəbbət yağar
Bayram axşamlarında.

II bənd
Görməzsən yalqızları,
Al geyər el qızları,
Lalə kimi qızarar
Bayram axşamlarında.

Nəqərat.

T 1 “Bayram axşamlarında” mahnısını ansambl şəklində oxuyun.

III bənd
Hər tərəf işıq olur,
Başqa yaraşıq olur,
Göy yerə aşiq olur
Bayram axşamlarında.

Nəqərat.

“Bayram axşamlarında”

“Musiqili fincan” oyununun qaydaları:

Qruplara bölünün. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşsın. Fincanlardan birini qaldırıb altında gizlədilmiş kartı götürsün. Həmin kartı öz qrupuna təqdim etsin. Musiqi səsləndikcə ansambl şəklində onun ritminə uyğun kartdakı musiqi alətinin ifa tərzini hərəkətlərlə təsvir edin.

2 “Bayram axşamlarında” mahnısının ritminə uyğun musiqi alətində çalmağı hərəkətlərlə təsvir edin.

Musiqi ansambllarında xoşunuza nə gəldi?

3 “Bayram axşamlarında” mahnısının sədaları altında yallı ritmində rəqs edin.

Rəqs elementlərinin sxemi

Bölmə 6 Kino musiqisi

Filmdə baş verən hadisələri müşayiət edən musiqi onları daha təsirli edir.

20 "Əzablı yollar" filmi

Filmin məzmununu, ordakı obrazları və baş verən hadisələri tamaşaçıya daha aydın çatdırmaq üçün musiqidən geniş istifadə olunur.
Azərbaycan kinofilmlərinə bəstəkarlar tərəfindən gözəl mahnılar yazılmışdır. Bu bəstəkarlardan biri də Tofiq Quliyevdir. O, bir çox kinofilmlər üçün yaddaqalan rəngarəng musiqi yazmışdır.

"Əzablı yollar" filminin qısa məzmunu:

Divlər ölkəni şər qüvvələrdən qoruyan üç sehrli almanı oğurlayır. Həmin almaları axtarıb tapmaq üçün şah oğullarını uzaq səfərə göndərir. Qardaşların yolu uzun, təhlükəli və çətin olur. Sonda onlar bütün çətinliklərin öhdəsindən gəlir, güclü və xeyirxah olurlar.

"Əzablı yollar" filmindən **"Yollar"** mahnısı
Musiqisi Tofiq Quliyevin, sözləri Ramiz Rövşənindir.

Obrazlar: Məlikməmməd və qardaşları

Cədvəldən istifadə edərək obrazların xarakteri haqqında fikirlərinizi bildirin.

melodiya	ritm	temp	lad	dinamik çalarlar	registr
qalxan	ahəng	orta	minor	forte	orta

“Neftçilər mahnısı”
Musiqisi Tofiq Quliyevin,
sözləri Süleyman Rüstəmindir.

I bənd
Canım Bakı, qanım Bakı, ana Vətən!
Yaranmısan xalqımızın qüdrətindən.
Qara qanın qaranlığa işıq saçır,
Ağ günlərə, gələcəyə yollar açır.

Nəqərat:
Sənsən həyatım, qolum, qanadım,
Şöhrətim, adım, Azərbaycan!
Qəlbimdə qaynar qızıldan çaylar,
Şöhrətim, adım, Azərbaycan!

II bənd
Sən gözümün işığısan, mavi Xəzər,
Günəşlə bir oyanırsan səhər-səhər.
Gözəl Bakı, göz bəbəyim, paytaxtımsan,
Öz şəhərim, öz zəfərim, öz baxtımsan.

Nəqərat.

T 2 Cədvəldən istifadə edərək obrazların xarakteri haqqında fikirlərinizi bildirin.

Obrazlar: neftçilər

melodiya	ritm	temp	lad	dinamik çalarlar	registr
qalxan	marş	orta	minor	forte	orta

Dərsdə səslənən musiqi nümunələrindəki obrazların fərqi nədədir?

T 3 Kartlarda verilmiş sözlərdən istifadə edərək Tofiq Quliyev haqqında cümlələr qurun.

- musiqisi | filminin | Tofiq Quliyevindir. | “Əzablı yollar”
- marş | “Neftçilər mahnısı” | ritmindədir. | Tofiq Quliyevin
- dillər | “Neftçilər mahnısı” | Tofiq Quliyevin | əzbəridir.
- bəstələyib. | kinofilmlər | musiqi | Tofiq Quliyev | üçün

21 "Qərib cinlər diyarında" filmi

Azərbaycanın görkəmli bəstəkarlarından biri də Arif Məlikovdur. O, müxtəlif janrlarda musiqi əsərləri yazmışdır. Arif Məlikov kinofilmlərə də musiqi bəstələmişdir. Bu filmlərdən biri "Qərib cinlər diyarında" adlanır. Filmə yazılmış musiqi müxtəlif obrazları əks etdirir.

"Qərib cinlər diyarında" filminin qısa məzmunu:
Qərib adlı bir gənc var-dövlət arzusunda idi. Bundan xəbər tutan cinlər padşahı ona varlanmaq vədi verir və hiylə ilə öz sarayına aparır. Var-dövlətin əvəzində isə Qərib öz evini və doğmalarını tərk etməli, cinlərə taxıl əkməyi, çörək bişirməyi öyrətməli idi. Lakin çox keçmədən Qərib başa düşür ki, dünyada Vətəndən əziz heç nə yoxdur. Cinlərin bütün maneələrinə baxmayaraq, Qərib tezliklə öz diyarına, yaxınlarının yanına qayıda bilir.

"Qərib cinlər diyarında" filmindən **"Gəldi bahar"** mahnısı
Musiqisi Arif Məlikovun,
sözləri Hikmət Ziyanındır.

"Qərib cinlər diyarında" filmindən "Gəldi bahar" mahnısının ritmik müşayiəti haqqında fikirlərinizi qeyd edin.

Qeydiyyat vərəqi

“Qərib cinlər diyarında” filmindən **“Səpil, toxumum, səpil!”** mahnısı Musiqisi Arif Məlikovun, sözləri Hikmət Ziyanındır.

I bənd

Səpil, toxumum, səpil!
Hər dənin sünbül olsun.
Baharlı, qışlı bu il
Bərəkətli il olsun.

II bənd

Qızıl zəmiyə dönsün
Əlimizin əməyi.
Süfrəmizi bəzəsin
Sarı buğda çörəyi.

1-ci sətir

2-ci sətir



T 2 Sxemə görə “Səpil, toxumum, səpil!” mahnısının 1-ci və 2-ci sətirlərinin melodiyasını metallofonda çalın.

“Qərib cinlər diyarında” filmində səslənən musiqinin ritmik müşayiətinə hansı musiqi alətlərini əlavə edərdiniz?

22 "Sehrli xalat" filmi

"Sehrli xalat" filminin qısa məzmunu:

Uşaqların bayramına gələn qonaqlar içərisində bir sehrbaz olur. O, uşaqlara sehrli xalat bağışlayır. Sehrli xalatın köməkliyi ilə uşaqlar keçmişə və gələcəyə səyahət edirlər. Bu səyahətlər nəticəsində keçmişdə baş verənlərlə və gələcəkdəki yeniliklərlə, elektron cihazlarla tanış olurlar.

"Bip-bipin nəğməsi"
Musiqisi Fikrət Əmirovun, sözləri Teymur Elçinindir.

▭ - *əl çalmaq*

I bənd

Uçdu göylərə bizim peykimiz,
Söylədi yerə: yol gedirik biz.
Bip-bip, bip-bip,
▭ ▭ ▭ ▭
Göylər min rəngdir.
▭ ▭
Burda ulduzlar,
▭ ▭
Gör nə qəşəngdir!
▭ ▭

II bənd

Günəşdən, Aydan salam var sizə,
Nəğmə deyirəm, uşaqlar, sizə.
Bip-bip, bip-bip,
▭ ▭ ▭ ▭
Dərindir göylər.
▭ ▭
Burda hər ulduz,
▭ ▭
Min nağıl söylər.
▭ ▭

III bənd

Uçuram Marsa, dalımca baxın,
Ulduzlar mənə yaxındır, yaxın.
Bip-bip, bip-bip,
▭ ▭ ▭ ▭
Gözləyin bir az,
▭ ▭
Görüşərik biz,
▭ ▭
Darıxmaq olmaz.
▭ ▭

T 1 "Bip-bipin nəğməsi" mahnısını oxuyarkən işarələnmiş hecalara uyğun əl çalın.

“Sehrli xalat” filmindən bir parça
Musiqisi Arif Məlikovundur.

2 Kosmik gəminin obrazını təsvir edən musiqi nümunələrini müqayisə edin.

“Sehrli xalat” filmi | “Bip-bipin nəğməsi”



Filmlərdəki daha hansı obrazları musiqi vasitəsilə canlandırardınız?

“Ritminə görə tap” oyununun qaydaları:

Qruplara bölünün. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşıb mahnıların adları yazılmış (“Yollar”, “Bip-bipin nəğməsi”, “Gəldi bahar”, “Səpil, toxumum, səpil!”) kartları götürsün. Həmin mahnıların ritmi növbə ilə səsləndikcə mahnını müəyyənləşdirin. Sonra mahnının adı yazılmış müvafiq kartı qaldırın.

3 Mahnını ritminə görə müəyyən edin.

23 "Bir qalanın sirri" filmi

Hər millətin, hər torpağın öz adı var, öz ünvanı,
Yağılara baş əyməyib Azərbaycan qəhrəmanı.
(Nəriman Həsənzadənin "Azərbaycan" şeirindən bir parça)

"Bir qalanın sirri" filminin qısa məzmunu:
Simnar adlı qəddar bir hökmdar var idi. O, cadugər vəziri ilə birlikdə xalqın əlindən torpağını və suyunu almışdı. Elmin sirlərini dərindən bilən Eldostu, onun şagirdləri Elşən və Mətanət birləşərək qara qüvvələrə qalib gəlirlər. Xalq zalım xan və onun cadugər vəzirinə qarşı mübarizədə zəfər qazanır, minlərlə insana sevinc və xoşbəxtlik bəxş edir.

"Bir qalanın sirri" filmindən bir parça Musiqisi Rauf Hacıyevindir.

Filmdə döyüş səhnəsinin musiqisinə uyğun kartda verilmiş musiqi ifadə vasitəsinin növünü seçin.

Melodiya	**Ritm**	**Temp**
qalxan, enən	ahəng, oynaq, marş	asta, orta, tez
Lad	**Dinamik çalarlar**	**Tembr** (musiqi alətlərinə görə)
major, minor	forte, piano	zərb, nəfəs, simli

“Əsgər qardaşlar”
Musiqisi Nailə Mirməmmədlinin, sözləri Zəminə Xınalınındır.

2 “Əsgər qardaşlar” mahnısını ritminə uyğun addımlayaraq ifadəli oxuyun.

I bənd
Mətin addımların döyüntüsündən
Lərzəyə düşübdür düşmən ordusu.
Əsgər qardaşların uca boyundan
Qorxuya düşübdür düşmən ordusu.

Nəqərat:
Geriyə yol yoxdur, yalnız irəli!
Açılan sabahlar gözləyir sizi.
Sevib sevindirin siz qəlbimizi,
Yaşayın, var olun, əsgər qardaşlar!
Analar fəxr edir, bacılar sevir,
Sizin qədrinizi bütün el bilir.
Sevincdən xalqım da göz yaşın silir,
Sevinin, şad olun, əsgər qardaşlar!
Yaşayın, var olun, əsgər qardaşlar!

II bənd
Ürək döyüntüsü, qəlb çırpıntısı,
Qaranlıq gecənin tez açılması,
Nurlu sabahların işıq saçması,
Sizin əlinizdə, əsgər qardaşlar.

Nəqərat.

Dərsdə səslənən musiqi nümunələrinin oxşarlığı nədədir?

3 Dərsdə ifa olunan musiqi nümunələrinin xarakteri haqqında təqdimat hazırlayın.

Bölmə 7 Konsert zalında

Konsert zalında səslənən melodiyalar dinləyicilərdə rəngarəng təəssüratlar yaradır.

24 Sevimli Vətən

Konsertlərdə müxtəlif forma və janrda olan musiqi nümunələri səsləndirilir.

Konsert zalına daxil olanda insan elə bil sehrli aləmə düşür. Konsertdə rəngarəng musiqi əsərləri səslənir. Onlar konsert nömrələri adlanır. Konsert nömrələri ardıcıl səsləndikcə dinləyicidə xüsusi ovqat yaranır və insan bir müddət onun təsiri altında olur.

"May"
Musiqisi Rəşid Şəfəqin,
sözləri Rüfət Əhmədzadənindir.

I bənd

Aşdı-daşdı çay,
Açdı gül-çiçək.
Gəldi gözəl may,
Sevindi ürək.
Günlər şən keçir,
Coşur arzular.
Gətirdin bizə
Solmayan bahar.

II bənd

Dağlar donunu
Atlasdan geyir.
Hər tərəf, hər yan
Sənə "Gəl", – deyir.
Gülür baxışlar
Yaz günəşindən.
Güldü, sevindi
Anamız Vətən!

T 1 Verilmiş sxemə uyğun "May" mahnısının melodiyasında olan intervalları notların adları ilə oxuyaraq metallofonda çalın.



Ritmik müşayiət musiqi nümunəsinin ifasına necə təsir edir?

Metallofon



"Xəzəri"
Azərbaycan xalq rəqsi

Ritmik müşayiətin hansı növü daha çox xoşunuza gəlir?

T 2 "Xəzəri" rəqsini ritminə uyğun ifa edin.

Rəqs elementlərinin sxemi



25 Afişa

Konsert üçün hazırlanan afişa (elan) 2-3 gün onun keçirilməsindən əvvəl xüsusi lövhələrdə yerləşdirilir. Afişada konsertin başlığı, çıxış edən ifaçıların adları və konsertin repertuarı (ifa olunacaq əsərlər) haqqında məlumatlar çatdırılır. Konsert afişasını daha cəlbedici edən burada istifadə olunan şüar, şəkil və rəsmlərin rəngarəngliyidir.

Repertuar – siyahı, əsərlərin məcmusu

"Sənə zəfər yaraşır, Azərbaycan!" adlı konsert üçün repertuar

1. ☆ ☆ ☆
2. ☆ ☆ ☆
3. ☆ ☆ ☆
4. ☆ ☆ ☆
5. ☆ ☆ ☆
6. ☆ ☆ ☆

T 1 "Sənə zəfər yaraşır, Azərbaycan!" konsert afişası üçün il boyu keçilənlərdən 3 mahnı və 3 rəqs seçin.

“May”
Musiqisi Rəşid Şəfəqin,
sözləri Rüfət Əhmədzadənindir.

T 2 Verilmiş sxemdən istifadə edərək “May” mahnısını 2 səsli oxuyun.



Nümunə üçün:

1- ci səs	Aşdı-daşdı çay,
2- ci səs	la la
1- ci səs	Açdı gül-çiçək.
2- ci səs	la la
1- ci səs	Gəldi gözəl may,
2- ci səs	la la
1- ci səs	Sevindi ürək.
2- ci səs	la la

26 Konsertə hazırlıq

Hər bir tədbir, konsert hazırlıq tələb edir. Konsertə hazırlaşarkən musiqiçilər öz ifaları üzərində işləyirlər. Onlar musiqi əsərlərini dəfələrlə təkrar edirlər: kimi mahnı oxuyur, kimi musiqi alətində çalır, kimi isə rəqs edir. Musiqiçilər hazırlıq məşqlərində (repetisiyalarda) ifa olunacaq konsert nömrələrinə aid atributlardan da istifadə edirlər.

"Repetisiya" oyununun qaydaları:

6 qrupa bölünün. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşıb qiymətləndirmə cədvəlini və afişada qeyd olunmuş musiqi nümunələrinin adları yazılmış kartlardan birini götürsün, onları qrupuna təqdim etsin. Növbə ilə qrup şəklində kartdakı musiqi nümunəsini ifa edin. Digər qrupların çıxışını isə cədvələ görə qiymətləndirin.

T 1 Verilmiş cədvəlin əsasında qrupların ifasını qiymətləndirin.

Konsert nömrəsinin adı	Xarakterinə uyğun ifa ("+" və ya "-")	Ritmik müşayiət ("+" və ya "-")
1.		
2.		
3.		
4.		
5.		
6.		

I qrup
II qrup
III qrup
IV qrup
V qrup
VI qrup
AFİŞA
Mahnı
Raqs
Konsertə hazır olduğunuzu necə müəyyən etmək olar?
Konsertə hazırlığı müəyyən etmək üçün daha nəyə fikir verərdiniz?

27 Bayram konserti

T 1 Afişada verilmiş birinci mahnını oxuyarkən zərb musiqi alətlərində ritmik müşayiət edin.

T 2 Afişada verilmiş birinci rəqsi xarakterinə uyğun ifa edin.

T 3 Afişada verilmiş ikinci mahnını oxuyarkən metallofonda ritmik müşayiət edin.

T 4 Afişada verilmiş ikinci rəqsi xarakterinə uyğun ifa edin.

T 5 Afişada verilmiş üçüncü mahnını oxuyarkən əl çalmaqla ritmik müşayiət edin.

T 6 Afişada verilmiş üçüncü rəqsi xarakterinə uyğun ifa edin.

Xoş gəlmişsiniz!!!

“Sənə zəfər yaraşır, Azərbaycan!” adlı bayram konsertində daha çox xoşunuza gələn nə idi?



"Musiqili yol" oyununun qaydaları:

Düymələri ox (→) damasına qoyun və növbə ilə zər atın. Zərin üst tərəfindəki nöqtələrin sayına uyğun düyməni irəli sürükləyin.
Sual (?) olan damada dayansanız, tapşırığı yerinə yetirin. Damalardan çıxan oxlar isə bir neçə addım irəli getməyinizi və ya geri qayıtmağınızı göstərir. Yolu birinci kim tamamlasa, o, Saz və Neylə birlikdə konserti izləyəcək.

Dahi bəstəkar, "Cəngi" pyesinin müəllifi
108 109 110 111 ?
104 103 102 101 100 99 ? 97 96 95 94 93 ? 91 90 89 88 87 ? 85 84 83 82 81 80 79 78 77 76 74 73 72 71 70 69 68 67 66 65 64 ? 62 61 60 59 58 57 56 55 ? 53 52 51 50
Deyin, hansı alətin metaldan dilləri var, Zərblə vursan dillərə, onlar musiqi çalar?
Sxemə uyğun dirijorluq edin.
4
2
3
1
Bu musiqi formasının adı "dairə" sözündən götürülüb.
Bu alətdə çalmaq üçün nə çatışmır?
Sülh quşunu tərənnüm edən mahnının adı
Bu mahnı hansı kinofilmdəndir?

Metallofon



Buraxılış məlumatı

MUSİQİ 3

Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün
Musiqi fənni üzrə

DƏRSLİK

Tərtibçi heyət:

Müəlliflər: **Nərgiz Rəcəbova**
Şəhla Quliyeva
Zemfira Əliyeva

Buraxılışa məsul **Rafiq Kazımov**
Dizayner və səhifələyici **Kənan Yusifzadə**
Rəssam və animatorlar: **Ruhulla Həsənzadə**
Kamila Hüseynzadə
Multimedia mütəxəssisi **Kənan Yusifzadə**
Redaktor **Gültəkin Cəfərova**
Korrektor **Nigar Əliyeva**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Samirə Bektaşi**
Texniki direktor **Allahverdi Kərimov**
Nəşriyyat direktoru **Sevil İsmayılova**

Rəqəmsal mobil texnologiyaların (animasiyalar, multimedia və QR kodlar) dərslik və dərs vəsaitlərində istifadəsinin ideya müəllifi **Rafiq Kazımov**

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi: 2022-012

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələrilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 5,7. Fiziki çap vərəqi 8. Formatı 57x82 1/8.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 64.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj 150675. Pulsuz. Bakı – 2022

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 11.08.2022

Çap məhsulunu nəşr edən:
"Şərq-Qərb" ASC
(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)

Çap məhsulunu istehsal edən:
"Radius MMC" mətbəəsi
(Bakı şəhəri, Binəqədi şossesi, 53)

Pulsuz

Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!